**UOT 75**
https://doi.org/10.59849/2311-8482.2025.4.181

**MƏMMƏDHÜSEYN HÜSEYNOV***

# DEKORATİV-TƏTBİQİ VƏ TƏSVİRİ SƏNƏTDƏ ƏYRİ XƏTT ANLAYIŞI

*Məqalədə dekorativ-tətbiqi və təsviri sənət növlərində əyri xətt anlayışının semantik, estetik və texniki xüsusiyyətləri araşdırılır. Əyri xəttin yaranma mənbələri, onun təbiətdəki və mədəniyyət tarixindəki ilkin formaları, həmçinin insanın dünyagörüşü və yaradıcılıq təcrübəsi ilə əlaqələri elmi-nəzəri kontekstdə təhlil olunur. Müəllif qədim qayaüstü təsvirlərdən və ornament nümunələrindən başlayaraq, əyri xəttin formalaşma prosesini izləyir və bu anlayışın bədii-estetik dəyərlər sistemində oynadığı rolu müəyyənləşdirir. Məqalədə əyri xəttin rəmzi mənaları - hərəkət, dinamika, həyat dövriyyəsi, müdriklik və yaradılış ideyaları ilə bağlılığı göstərilir. Eyni zamanda, dalğalı və qövsvari xətlərin ornament sənətindəki inkişaf mərhələləri və onların fəlsəfi mahiyyəti izah olunur. Nəticə etibarilə, əyri xəttin dekorativ-tətbiqi və təsviri sənətdə həm forma, həm də məzmun baxımından yaradıcı element kimi xüsusi funksiyaya malik olduğu elmi əsaslarla sübut edilir.*

***Açar sözlər:*** *Əyri xətt, ip, kələf, texnika, ornament, naxış.*

## Giriş

Əyri xəttin məntiqi olaraq quruluşunun qavranılması nöqteyi-nəzərindən onun iki növə ayrıldığı və bütün cızımların və ya təsvir edilən hər bir nəsnənin düz və əyri xətlərdən əmələ gəlməsinin aksioma olduğu qətidir. Amma bu xətlərdən hansının öncə yarandığı və qədim insanlar tərəfindən necə qavranıldığını söyləmək çətin olsa da, alimlərin apardığı tədqiqatlardan məlum olur ki, əyri xətlər daha qədimdir. Əyri xətti “nəbati xətt” adlandıranlar onu bitki aləminə bağlayır və ilk dəfə insanlar tərəfindən torpaq üzərinə çəkilən xəttin dalğavarı və ya əyri olduğunu zənn edirlər. Biz, bu fikirləri təsbit edən əyri xətli cızımları və təsvirləri yer üzündə mövcud olan qayaüstü, həmçinin mağara divarlarında əks olunan rəsmlərdən də görə bilərik. Bu baxımdan əyri xətt məfhumunun daha öncə yaranması, onun ornamentin meydana gəlməsində ilk meyar olaraq öyrənilməsini önə çəksə də, quruluş, həndəsə və bu kimi dəqiq elmlərin təsiri nəticəsində düz xətt (həndəsi xətt) anlayışı özül hesab olundu. İndi də ornament sənətinin növləşmə strukturunda o, ilk yeri tutur.

## Əsas təhlil

Ümumiyyətlə, əyri xətt nədir? Onun quruluşu və ya şəkillənməsi sərbəstdir, yoxsa hansısa həndəsi qanunlara söykənir? Yəqin ki, bu sualların cavablarını əyri xəttin öz quruluşunda axtarmaq daha düzgün olardı. Təbii ki, düz istiqamətdə olmayan, düz xətt təşkil etməyən xətlərə əyri xətt deyilir. [1] Əyri xətt sifətdir və ona dalğalı, dalğavarı, qırıq və ya sınıq dalğalı xətt deyirlər. Bucağı olmayan, dalğavarı dairəvi və ya qövs formasında olan xətlər də əyri xətlərdir.

Dilimizdə **Əy** – “döndər”, “qatla”, “yönlət” deməkdir. Buradan aydın görünür ki, “Ay”, “Ey” və “Əy” arasında hər üçü birlikdə müraciət ediləni yaxşılamaqla lazımi səmtə yönəltməyə imkan verir. [2 s.98]

Əyri xətt, nizamlanmamış nöqtələrin ardıcıllığı olduğundan fərqli istiqamətlərə malikdir və müxtəlif əyrilər əmələ gətirir. Nəsrəddin Tusi “Təhriri-Öqlidis” əsərində əyri xətt barəsində qeyd edir ki, o “ensiz əyri uzunluqdur və nöqtə ilə qurtarır”. [3. s.6] Dairə isə ancaq bir xətlə əhatə olunmuş müstəvi bir şəkil olub, bunun daxilində bir nöqtə vardır ki, bu nöqtədən o xətti birləşdirən bütün xətlər bərabərdir. O xəttə çevrə, nöqtəyə də mərkəz deyilir. [3. s. 7]

Bir sözlə “iki nöqtəni birləşdirən digər (düz olmayan) bütün xətlər əyri xətlərdir” [4. s.92] Əyri xətlər ən qədim zamanlardan insanların ilk təsəvvürlərində mövcud olmuşdur. Onlar bunu təbiətin özündən müşahidə etmiş və öyrənmişlər. Məsələn, dağların-dərələrin eniş-yoxuşundan, göy qurşağının rəngli qövslərindən, heyvanların bədən quruluşundan, çay sularının axma xəttindən,

atılan daşın trayektoriyasından, gül-çiçək ləçəyinin və bitki yarpaqlarının formalarını təyin edən xətlərdən və s. Bütün bunların təsvir olunması əyri xətt olmadan mümkün deyildir. Bu baxımdan ən qədim əcdadlarımız əmək alətlərinin ornamentasiyası və ya qayaüstü cızımların çəkilməsi proseslərində əyri xətlərin nədən və necə əmələ gəlməsinə həmçinin, onun tədricən hansı xüsusiyyətlərə malik olan formalarını müəyyənləşdirmişlər. Hətta qədim dövrlərdən bəri insanlar təbiət qüvvələrini və inanclarını əks etdirmək üçün əyri xətlərə həm quruluşuna həm də formasına görə məna və məzmun verməklə onların bəzək kimi, semantik anlamlarını da yaratdılar. Zaman-zaman bu anlamlar həndəsi qanunauyğunluqlarla insanların dünyagörüşünə daxil olub, elm aləminin geniş bir üfüqini açmaqla fəlsəfi dəyər də formalaşdırdı. Məsələn, müəyyən dərəcədə əməlləri düz olan bir insanı simvolizə edən düz xətt müdriklik ideyası ilə əlaqələnsə də, bəzi fəlsəfi dəyərlərə söykənən fikir adamları isə müdrikliyə aparan yolun qrafik ifadəsini, hikmət qazanmağın yeganə yolu olan S formalı dolayı əyri xətt olduğunu iddia etmişlər. Onların fikirincə bəzi gizli ənənələrə görə müdrikliyə gedən yol “ilan yolu”dur və bu yolu təmsil etmək üçün insanı udan S formalı ilanı yaxud insanların ilan və ya balıq quyruqlu təsvirləri inisiasiya prosesini əks etdirir. Hikmətin əldə edilməsini əks etdirən bu cür təsvirlər kahinlik simvollardır və bu zaman insan müdriklik yoluna elə inteqrasiya olunur ki, o “ilana” çevrilir. Bu baxımdam S formalı əyri xətt təsvirləri fövqəltəbiidir və bir çox semantik anlamları hələ də ifadə etməkdədir.

Əyri anlayışını təlqin edən və təbiətin möcüzəvi hadisələrindən sayılan qövsi-qüzeh (göy qurşağı) bu timsalda ən bariz nümunələrdən hesab oluna bilər. Onun qövsi-qüzeh adlanması isə qurşaqşəkilli yeddi rəngdən ibarət əyrinin fəzada qövs forması alması ilə bağlıdır. Qövsi-qüzeh ən qədim dövrlərdən bəri insanlar arasında fövqəltəbii və təbii dünyaları əlaqələndirən körpü kimi simvolizə olunmuş həmçinin, yeddi qövs şəklində təsvir edilmişdir.

Ümumiyyətlə, qövs əyri xətt anlayışını ifadə edən səlis həndəsi təsvirdir. Onun bir çox rəmzi mənaları var. Qövs dairənin bir hissəsi olduğundan həyat qüvvəsini və potensial ruhu simvolizə edir. Eyni zamanda o ayın qövsu və ya hilalı ilə əlaqələndirilməklə həmçinin, kosmoloji səciyyə də daşıyır.

Qövs təsvirləri Babilin ən qədim sirli mərkəzlərində istifadə olunan simvollardan biri kimi tanınmışdır.

Qədim Yunanıstanda göy qurşağı qövslərinin şehindən paltar geyinmiş göy qurşağı ilahəsi İris Zevsin və onun həyat yoldaşı Heranın insanlara elçi olduğuna inamı var imiş. Hindistanda isə göy qurşağı qəhrəman İndraya təzim kimi qəbul edilirdi.

Bir çox ənənələrdə göy qurşağı qövsləri cənnətə gedən bir pilləkəni və ya yolu simvolizə edir. Su yaxud, günəş rəmzi olaraq, ucları ilə yerdə dayanan göy qurşağı yaxşı məhsulun olacağına həmçinin, gizli xəzinələrin gizləndiyi yerlərin aşkar olunmasına işarədir. Folklorda isə onun “qızıl qazanı”nı ifadə etdiyinə inanılırdı.

Orta Asiya türkləri arasında rəngli göy qurşağı qövsləri şamanizm ayinlərində cənnətə səyahətin simvoludur. Onun fəzadakı mövqeyi ilə əlaqədar olaraq tez-tez təsvir olunması, daha fərqli rəmzləri ifadə etmək xüsusiyyətlərindən irəli gəlirdi. Məsələn, bəzi inanc ənənələrində qövs formaları istiqamətinə və həcminə görə təsvir edilməklə həm doldurulmağa həm də çevrilmiş qaba (badə) bənzədilərək əks olunurdu.

Xristian inamında qövsün çevrilmiş təsviri doldurulmağa hazır olan qab kimi ruhu saxlayan, çevrilmiş təsviri isə aypara kimi həyatı simvolizə edir. Burada çevrilmiş qab (badə) şəklində olan aypara Məryəm ana obrazı üçün xarakterikdir. Bu da onu göstərir ki, o həyatdır, qabın içindəkidir, dənizdir (Maqe) həmçinin Məryəm adının tərcüməsidir. Qövs və ya əyri xətlərin bir çox

nümunələrini əks etdirən bu cür simvolların olması kifayət qədərdir. Belə simvollar zaman-zaman, mərhələ-mərhələ formalaşmış və inkişaf etdirilərək ornament yaradıcılığına geniş yol açmışdır.

Əyri, dəyirmi əyri, dalğalı və ya əyri-üyrü xətlər əyilmə meyillərinə görə bir-birindən fərqlənirlər. Müqayisə üçün təbiətdə əyilmə meyillərinin çoxlu nümunələri var. Məsələn, meyvələrinin bol və ağırlığından əyilən ağac budaqları, dəyirmi şəkilli gül-çiçək ləçəkləri, axan çay sularının yatağına görə yaratdığı əyri-üyrülük, ayın fazalarının dəyişməsinə uyğun olaraq yaranan əyrilik və ya ox atmaq üçün gərilərək əyilən yayın forması və s.

Təsviri sənətdə əyri xətlər plastika (yunan sözüdür, mənası "incə", "müntəzəm", "gözəl" və s.) anlayışı ilə qavranılır. Bu anlayış hələ b.e. daha əvvəllər ibtidai dövr insanlarını təbii olaraq, özünə cəlb etmiş, qavranılması isə müəyyən vərdişlərlə mağara divarlarına, qaya, daş, sümük, dəri və digər şeylərin üzərinə çəkilən təsvirlər vasitəsilə həyata keçirilirmişdir. Zaman-zaman əyri, yaxud plastika adlandırılan xətlərlə müxtəlif təbiət, məişət və məişət həyatı səhnələrini əks etdirən əcdadlar sonralar elə həmin xətlərlə bəzək yaratmaq anlayışına qədəm qoymuşlar. Onlar bu minvalla bəzək anlayışını formalaşdıran ayrı-ayrı əyri xətt növlərinin mahiyyətini elə dərk etməklə eyni zamanda onu düz xətlərdən fərqləndirməyi də bacarmışlar. Tarixin sonrakı mərhələlərində isə qədim insanlar əyri və düz xətlərdən istifadə edərək müxtəlif təsvir növlərinin yaranmasına yol açdılar.

Düz xətlər kimi, əyri və ya bütün dalğalı xətlər həm birbaşa həm də qırıq-qırıq şəkildə təsvir olunurlar. Əyri xətlərin təsvirləri müxtəlifdir. Onların ən geniş yayılmış nümunəsi dalğalı əyri xətdir. Aşağıya və yuxarıya doğru döndərilərək, enişli-yoxuşlu şəkildə aparılmış əyri xətt ornament sənətində "dalğalı xətt" kimi qəbul edilir. Onun çəkilmə trayektoriyası dəniz sularında yaranan təbii dalğalara oxşadığından dalğalı xətt adlandırılmışdır. Dalğalı xətləri birbaşa və ya qırıq-qırıq şəkildə təsvir etmək mümkündür.

Başlanğıcını hər hansı bir nöqtədən başlayaraq, qövsəbənzər xətlərin yuxarıdan aşağıya, aşağıdan yuxarıya döndərilən rapportlu ritmik təkrarı, onun dalğa sayından və məsafəsindən asılı olmayaraq, həm şaquli həm də üfüqi və diaqonal istiqamətlərdə istənilən qədər çəkilə bilər. Əcdadlarımız hələ ən qədim zamanlardan bəri dalğalı əyri xətlərin müstəqil təsvirlərindən rəmzi işarə yaxud, bəzək elementi kimi, istifadə etmişlər. Onların dünyagörüşlərində dalğalı əyri xəttin təsvirləri, hərəkətin, təlatümün (dinamiklik), axarlılığın, düzlükdən çıxmanın işarəsi kimi qəbul olunmuş, rəmzi mənada isə dəryaları, çay və gölləri, səhra düzlərini və ilanları (yollar) ifadə etmişdir. Ən qədim dalğalı əyri xətt təsvirlərinə qayaüstü rəsmlərdə, gil qablar o cümlədən, müxtəlif məmulatların bəzənməsində rast gəlmək mümkündür.

Dalğalı əyri xətlərin qövsvarı hissələri yay kimi yığılmış və ya açılmış şəkildə təsvir edilə bilər. Belə olan halda dalğalı əyri xətlər müxtəlif quruluşa malik olan bəzək formaları alır ki, bu da ona ornamental zənginlik gətirir. Bundan başqa əsrlər ötdükcə insanlar primitiv cızımlarla təsvir etdikləri dalğalı əyri xətlərə həndəsi anlayışlar gətirməklə onun mahiyyətinə elmi dəyərlər də qatdılar. Onlar istiqamətinə və yaxud trayektoriyasına görə dörd qismə ayrılırlar:

Üfüqi istiqamət üzrə düzülən əyrilər və ya əyri dalğalı xətt təsvirləri.

Şaquli istiqamət üzrə düzülən əyrilər və ya əyri dalğalı xətt təsvirləri.

Diaqonal (maili) istiqamət üzrə düzülən əyrilər və ya əyri dalğalı xətt təsvirləri.

**Nəticə**

İstənilən şəkildə diaqonal istiqamətdə müxtəlif bucaqlar altında sərbəst, qırıq dalğalı və ya pərakəndə formada təsvir olunan əyri xətlər.

Əyri xətlə əmələ gələn səlis və ölçüləri ideal biçimli təsvirlər həndəsi xassələrə malikdir. Dairə, çevrə, qövs (yarım qövslər), oval ellips, parabola, orisikl və ya müxtəlif sabit əyrilikli limit xətləri və sair barəsində növbəti paraqrafların birində bəhs açılacaqdır.

\`

## ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti. III cild. Bakı: Şərq-Qərb, 2006, 157 s.

2.Musayev İ. Dil, yaddaş, vətən, vətəndaş / Bakı: Assosiativ ensiklopediyası nəşriyyatı birliyi, 1995, 202 s.

3.Nəsrəddin T. Təhriri – Öqlidis. Bakı: Şamaxı Astrofizika Rəsədxanası, 2001, 6 s.

4.Dünyamalıyeva S. Ornament (dərs vəsaiti). Bakı: Nasir, 2014, 92 s.

***Əməkdar rəssam, Azərbaycan Rəssamlıq Akademiyasının**
**“Bədii toxuculuq və xalça sənəti” kafedrasının professoru.**
**E-mail: mamedhuseyn_1967@yahoo.com***

**Mammadhuseyn Huseynov**

## THE CONCEPT OF THE CURVED LINE IN DECORATIVE AND VISUAL ARTS

The article explores the semantic, aesthetic, and technical aspects of the concept of the curved line in decorative and visual arts. It analyzes the origins of the curved line, its primary forms in nature and cultural history, as well as its connection to human worldview and creative experience within a theoretical framework. Starting from ancient rock engravings and ornamental motifs, the author traces the formation process of the curved line and defines its role within the system of artistic and aesthetic values. The symbolic meanings of the curved line — motion, dynamism, the life cycle, wisdom, and the idea of creation — are discussed. Furthermore, the article explains the stages of development and philosophical essence of wave-like and arc-shaped lines in ornamental art. As a result, it is demonstrated that the curved line, both in decorative and visual art, functions as a creative element of significant formal and conceptual importance.

**Keywords:** *curved line, thread, skein, technique, ornament, pattern.*

**Мамедгусейн Гусейнов**

## ПОНЯТИЕ КРИВОЙ ЛИНИИ В ДЕКОРАТИВНО-ПРИКЛАДНОМ И ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ

В статье исследуются семантические, эстетические и технические особенности понятия кривой линии в декоративно-прикладных и изобразительных видах искусства. Анализируются источники возникновения кривой линии, её первичные формы в природе и истории культуры, а также взаимосвязь с мировоззрением человека и его творческим опытом в научно-теоретическом контексте. Автор, начиная с древнейших наскальных изображений и орнаментальных мотивов, прослеживает процесс формирования кривой линии и определяет

её роль в системе художественно-эстетических ценностей. В статье раскрываются символические значения кривой линии - движение, динамика, жизненный цикл, мудрость и идея творения. Также объясняются этапы развития волнообразных и дугообразных линий в орнаментальном искусстве и их философская сущность. В результате доказано, что кривая линия в декоративно-прикладном и изобразительном искусстве выполняет особую функцию как творческий элемент, обладающий как формальной, так и смысловой значимостью.

**Ключевые слова:** *кривая линия, нить, клубок, техника, орнамент, узор.*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 01.10.2025**
**Son daxilolma tarixi:08.11.2025**